| | |
|---|---|
| Qarber Aleksandr Aronoviç |  |

Qarber Aleksandr Aronoviç 28 avqust 1955-ci ildə Bakı şəhərində anandan olub. 1972-1977-ci illərdə Azərbaycan Mühəndis və İnşaat Universitetində təhsil alıb. 1987-1989 “Bakıdövlətlayihə” institutunda Layihənin baş memarı, 1989-1990 Bakı şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsində baş konstruktor kimi çalışıb. 1990-1992 “Sosiologiya” Memarlıq bölməsinin rəhbəri, 1992-1994 “Newstar” LTD baş direktorun müavini, 1994-2003 СК “İLHAM” kooperativinin baş mühəndisi, 2003-2012 “VİZER Construstion“ şirkətində Layihə sektorunun direktoru işləyib. 2012-ci ildən etibarən “ADEC” Azərbaycan İnkişaf şirkətinin aparıcı memarıdır.

Azərbaycan Respublikasının “Tərəqqi” medalı (2012), “Ustad Memar” sertifikatı (2012), Azərbaycan Respublikası Memarlar İttifaqı tərəfindən Çoxillik yaradıcılıq fəaliyyətinə görə Fəxri Fərmanla (2015, 2020) təltif olunub.Azərbaycanın Əməkdar memarıdır (2016). 2021-ci ildən Beynəlxalq Memarlıq Akademiyasının Moskva bölməsinin professorudur.